ŞAHLAR ƏSGƏROV

# HEYDƏR ƏLİYEVİN HƏYATININ UNİKAL SƏHİFƏLƏRİ

*Böyük şəxsiyyət haqqında düşüncələrim*

"UNEC" Rəqəmsal Mətbəə

BAKI - 2023

63.3(5 Az)6-8 я 663 (5 Az)
2 92

Şahlar Əsgərov. **Heydər Əliyevin həyatının unikal səhifələri/** ***Böyük şəxsiyyət haqqında düşüncələrim/.*** Bakı: "UNEC" Rəqəmsal Mətbəə. – 2023. - 248 səh.

Heydər Əlirza oğlu Əliyev... O, adı Azərbaycanın XX və XXI əsrlər tarixindən qırmızı xətlə keçən fenomenal tarixi şəxsiyyət, öz fitri istedadı, parlaq zəkası, dərin intellekti və qeyri-adi idarəetmə bacarığı ilə tarixə öz möhürünü vuran, Şərqdən Qərbə, Şimaldan Cənuba hər kəsin heyranlıqla izlədiyi və yüksək dəyər verdiyi planetar və fəlsəfi düşüncəli dövlət xadimi, qurucu lider və xalqın sevən və xalq tərəfindən sevilən millət atasıdır. Bir xarici jurnalistin yazdığı kimi, "onun səsinin gəldiyi yerə milyonlar bir anda toplaşırdı". Qədirbilən Azərbaycan xalqı və əlahəzrət tarix onu nahaq yerə "Ümummilli Lider" və "Ulu Öndər" ünvanları ilə yad etmir.

Bu kitabda Ulu Öndərin ən yaxın silahdaşlarından biri, 91-lərin nümayəndəsi professor Şahlar Əsgərovun Azərbaycan xalqının dahi oğlu Heydər Əliyev haqqında, onun fenomenal və bənzərsiz adlandıra biləcəyimiz həyatının unikal səhifələri barədə düşüncələri, xatirələri, mühakimə və mülahizələri yer alır. Kitab dahi şəxsiyyəti gördüyümüz kimi yox, olduğu kimi tanımaq məqsədilə yazılıb və geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

© Ş.Əsgərov - 2023
© "UNEC" Rəqəmsal Mətbəə - 2023

*“Hökmdarlar yetişmir, onlar anadan  hökmdar doğulurlar”.*

*Artur Şopenhauer*



*"Heydər Əlirza oğlu min ildə bir yetişən dahilərdəndir"*

***B.Ecevit***

MÜNDƏRİCAT

ÖN SÖZ.................................................................... *7*

GİRİŞ...................................................................... *11*

**I FƏSİL. HEYDƏR ƏLİYEV FENOMENİ HAQQINDA DÜŞÜNCƏLƏR**............................. *13*
1. Böyük şəxsiyyət haqqında düşüncələr.................. *14*
2. Heydər Əliyev yolu.............................................. *41*
3. Heydər Əliyevin şah əsərləri................................ *48*
4. Heydər Əliyev və Atatürk – tarixi missiyada oxşarlıq.............................................................. *55*
5. Ulu Öndərlə unudulmaz görüşlərim....................... *62*
6. Dünya liderləri Heydər Əliyev haqqında............... *70*
7. Sözlərin böyüyü, böyüklərin sözləridir................. *75*

**II FƏSİL. HEYDƏR ƏLİYEVİN HƏYATININ UNİKAL SƏHİFƏLƏRİ**.......................................... *78*
1. Tarixi şəxsiyyət.................................................... *79*
2. Cəsarətli lider ...................................................... *84*
3. Kamilliyin meyarı.................................................. *88*
4. Dahi şəxsiyyətin qeyri-adi həyat yolu.................... *97*
5. Heydər Əliyevin unikal keyfiyyətləri..................... *108*
6. Heydər Əliyevin incə yumoru................................ *127*
7. 91-lər hərəkatı...................................................... *132*
8. Heydər Əliyevin həyatının keşməkeşli dövrü......... *144*

**III FƏSİL. HEYDƏR ƏLİYEVİN UNİKAL ƏLYAZMALARI**................................................ *157*
1. Heydər Əliyevin SSRİ Nazirlər Soveti partiya təşkilatına müraciəti............................................... *158*
2. Yeni, müstəqil Azərbaycan uğrunda...................... *162*

3. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında........................................................................ *167*
4. Keçmişimizə, bu günümüzə və gələcəyimizə işıq salan salnamə........................................................... *173*

**IV FƏSİL. ULU ÖNDƏRİN HƏYAT FƏLSƏFƏSİ**.............................................................. ***186***
1. Heydər Əliyevin fəlsəfəsi....................................... *187*
2. Dövlət və dövlətçilik............................................... *202*
3. Heydər Əliyev və ümummilli ideya....................... *209*
4. Ulu Öndərin bəşəri dəyərlər xəzinəsinə töhfəsi...... *218*
5. Heydər Əliyevin liberal-maarifçilik ideyaları......... *226*
6. Heydər Əliyevin aforizmləri.................................. *241*

**SON SÖZ**.................................................................... ***244***

## ÖN SÖZ

Ulu öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyinin qorunması, möhkəmləndirilməsi və hərtərəfli inkişafı naminə göstərdiyi misilsiz xidmətləri ilə xalqımızın qəlbində öz əbədi heykəlini ucaltmışdır. Güclü siyasi iradəsi, qətiyyəti, uzaqgörənliyi, yüksək intellekti, zəngin idarəçilik təcrübəsi ilə Vətən qarşısında xilaskarlıq missiyasını uğurla yerinə yetirmiş ulu öndər Heydər Əliyevin adı Azərbaycan tarixində hər zaman qürurla anılacaq və yaşayacaqdır. Milli sərvətimiz sayılan Heydər Əliyev irsi nəsillərdən-nəsillərə ötürülərək öyrəniləcək, tədqiq ediləcək, yeni hədəflərə və böyük zəfərlərə vəsilə olacaqdır.

Bu günədək keçdiyimiz tarixi yola nəzər salsaq, bu zəngin yolun məhz Ulu Öndərin siyasi kursunun davamı olduğunu görə bilərik. Ulu Öndər bizi cismən tərk edəndə ABŞ Dövlət katibinin o zamankı birinci müavini Riçard Armitac belə bir fikir ifadə etmişdi: "*Heydər Əliyevin ölümü ilə dünya bir qədər də kiçildi*".

Bu bir həqiqətdir ki, dünya məhz dahilərin, Heydər Əliyev kimi unikal şəxsiyyətlərin çiyinləri üstündə dayanır. Heydər Əliyevin ölümü ilə dünya kiçildi, lakin onun siyasi varisi, Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev bu kiçilən dünyada atasının miras qoyub getdiyi müstəqil Azərbaycanı daim böyütdü, yüksəkliklərə qaldırdı və əbədi var elədi.

Heydər Əliyevin ən böyük arzularından biri də Şuşanın azad edilməsi idi. Hələ sovet dövründə Şuşanın qorunması, Şuşaya Qarabağın mədəniyyət incisi statusunun verilməsi,

məhz Heydər Əliyevin təşəbbüsü və müstəsna xidmətləri nəticəsində mümkün olmuşdur. Vaqifin məqbərəsinin tikilməsi, "Vaqif poeziya günləri"nin keçirilməsi həmin dönəmin həm böyük mədəni, həm də siyasi hadisələrindən idi. Şuşa şəhəri Heydər Əliyevin bilavasitə səyləri nəticəsində az sonra tarix-memarlıq qoruğu elan olundu. Ulu Öndər Qarabağı Şuşasız, Azərbaycanı isə Qarabağsız təsəvvür etmirdi:

**"Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. ...Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir. Bu şəhərdə, onun ətrafında Azərbaycan xalqının bir neçə əsrlik tarixə malik böyük mədəniyyəti, mədəni irsi, qəhrəmanlıq nümunələri yaranıbdır. Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir. Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur".**

Ümummilli liderin 100 illiyi ərəfəsində Azərbaycan dünya tarixində misli görünməmiş qələbə ilə tarix yazdı və Ulu Öndərin ən böyük arzularından biri yerinə yetirilmiş oldu. Xalqımız ölkə başçısı, güclü sərkərdə, Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında sıx birləşərək, şanlı Zəfər tarixini yazdı – Qarabağ, Şuşa öz azadlığına və əzəli sahiblərinə qovuşdu.

"Heydər Əliyev İli"nin elan olunması ilə bütün sahələr üzrə qarşıya mühüm vəzifələr qoyuldu və Ulu Öndərin irsinin öyrənilməsi istiqamətində genişmiqyaslı araşdırmaların aparılması üçün böyük imkanlar yarandı. Elm və təhsil müəssisələrində, o cümlədən, Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) Heydər Əliyev irsinin daha geniş təbliğinə və araş-

dırılmasına başlanıldı. UNEC-də yaradılmış Heydər Əliyev İqtisadi İrsinin Öyrənilməsi Mərkəzində universitetin müvafiq strukturları tərəfindən 100-ə yaxın mövzu üzrə "Heydər Əliyev 100" müzakirələrinə start verildi. Ulu Öndərin zəngin fəaliyyəti, inkişaf konsepsiyası gənc nəslin nümayəndələrinin də iştirak etdiyi müzakirələrdə müxtəlif istiqamətlər üzrə tədqiq olundu və olunmaqda davam edəcək.

Ulu Öndərin iqtisadi irsinin öyrənilməsi prosesinə xaricdə yaşayan tədqiqatçı alimlər də cəlb olundu. İqtisadiyyat və İdarəetmə Sahəsində Tədqiqatçıların V Beynəlxalq elmi konfransı çərçivəsində UNEC tədqiqatçıları yerli və xarici professorlarla birgə "*Bir əsrin iqtisadi portreti*" kitabını ərsəyə gətirdilər. Kitabda toplanan məqalələrdə Heydər Əliyevin Azərbaycan iqtisadiyyatının formalaşdırılması və inkişafındakı rolu müxtəlif aspektlər üzrə araşdırılaraq beynəlxalq konfrans çərçivəsində, eləcə də beynəlxalq kitab sərgisində geniş oxucu auditoriyasına təqdim olundu.

Heydər Əliyev irsi çox zəngindir və bugünkü milli dövlətimizin iqtisadi və ideoloji əsasını təşkil edir. Ulu Öndərin həyatının bütün səhifələri xalqımız üçün qürur mənbəyidir. Bu dahi şəxsiyyət xalqı, dövləti üçün dərin düşünülmüş, uzunmüddətli gələcəyə hədəflənmiş böyük bir inkişaf konsepsiyası miras qoyub getdi. Biz bu zəngin mirası dəyərləndirməliyik, nəsildən-nəsilə ötürməliyik. Ulu Öndər hər zaman öz xalqını dövlətinə, milli dəyərlərinə sahib çıxmağa səsləyirdi:

**"Keçdiyimiz yola nəzər salsaq, görərik ki, biz nadir irsin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq, böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə,**

**həm bu gününə, həm də gələcəyinə dərin məsuliyyət hissi ilə yanaşmalıdır".**

Ömrünü xalqına həsr etmiş bu dahi şəxsiyyətin həyatının qayəsi Azərbaycanı daim irəli aparmaq olmuşdur:

**"Siz düşünməyin ki, Azərbaycan bizim üçün nə edib, düşünün ki, biz Azərbaycan üçün nə etmişik. Onda Azərbaycan da irəli gedər".**

Zaman mənəvi dəyərləri məhv edə bilmir. Bu baxımdan, Ulu Öndərin mənəvi dünyasının hər zərrəsinin öyrənilməsinə ehtiyac vardır. Biz daha işıqlı gələcək naminə Heydər Əliyev irsini yaşatmağa və təbliğ etməyə borcluyuq. Heydər Əliyevin fəlsəfi dünyası ilə bağlı mükəmməl kitablar yazılmalıdır və yazılır. Onun dövlət quruculuğu ilə bağlı konseptual müddəaları, fəlsəfi fikirləri, liberal-maarifçilik ideyaları ümumbəşəri dəyərlər xəzinəsinə böyük töhfədir.

***Ədalət Muradov,***
***Azərbaycan Dövlət İqtisad Universitetinin***
***(UNEC) rektoru, professor***



Hörmətli oxucu,

“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.